# Bakı beynəlxalq görüşlər mərkəzidir

Fərid Məmmədov



Son illərdə ixtisaslaşmış ticarət-sənaye sərgiləri Azərbaycanda işgüzar həyatın bir hissəsinə çevrilmişdir. Hər il paytaxt şəhərimizdə ən müxtəlif mövzular üzrə 20-dən çox sərgi keçirilir və bu da birmənalı şəkildə bütün ölkə iqtisadiyyatına müsbət təsir göstərir. Ticarət-sənaye sərgiləri beynəlxalq əməkdaşlığın qurulmasına və sərmayə axınının artmasına kömək edir. Həmçinin, sərgilər vasitəsi ilə yeni şirkətlər və birgə müəssisələr açılır. Bundan əlavə, sərgilər bilavasitə aid olduqları sahələrin uğurlarını nümayiş etdirir və onların inkişaf istiqamətlərini müəyyən edir. Biz də təşkilatçı olaraq, Azərbaycanda keçirilən ticarət-sənaye sərgilərə həm xarici eksponentlər, həm də yerli şirkətlər tərəfindən marağın ildən-ilə artdığını görməyə şadıq. Bu, eksponentlər və ziyarətçilərin sayında, yeni sərgi mövzularının yaranmasında və əməkdaşlıq üçün yeni sahələrin kəşf edilməsində özünü büruzə verir. Sərgi fəaliyyətinin bu cür dinamikasına bir sıra faktlar, o cümlədən onların arasında ən vacib hesab olunan Azərbaycan iqtisadiyyatının sabit inkişafı və ölkə rəhbərliyi, eləcə də dövlət strukturları tərəfindən göstərilən dəstək şərait yaradır. Artıq 5 ildir ki, Azərbaycanda sərgilər dünya standartlarına uyğun gələn və peşəkar menecmenti olan müasir sərgi kompleksində - "Bakı Expo" Sərgi və Toplantı Mərkəzində keçirilir. Bundan əlavə, mütəxəssislər Bakı şəhərinin özünü işgüzar tədbirlərin keçirilməsi üçün ən cəlbedici yerlərdən biri hesab edirlər, "New York Times" qəzeti isə Bakını 2015-ci ildə ziyarət etməyə dəyən dünya şəhərlərinin siyahısına daxil etmişdir. Bizə qonşu olan ölkələrdə də sərgi tədbirləri keçirilir, lakin onlar Azərbaycan sərgilərində toxunulan mövzuların rəngarəngliyinə, ekspozisiyaların miqyasına, eləcə də ziyarətçilərin sayına və coğrafiyasına görə bizim sərgilərdən geridə qalır. Buna görə də, hazırda biz Azərbaycanı qeyd-şərtsiz olaraq regionda sərgi sənayesinin nəhəng potensiala malik mərkəzi və ya, necə deyərlər, qovşağı adlandıra bilərik. Bir sıra sərgi brendi, məsələn, "AITF" Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər sərgisi, "WorldFood Azerbaijan" Azərbaycan Beynəlxalq Qida Sənayesi sərgisi, "Caspian Oil and Gas" Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgi və Konfransı artıq Azərbaycan hüdudlarından kənarda da məşhurdur və bütün dünya sənayesi liderlərinin görüş yerinə çevrilmiş əsas meydançadır. Bu gün Azərbaycanda sərgi xidmətləri bazarı ümumilikdə formalaşmışdır və biz şadıq ki, "Iteca Caspian" şirkəti bu bazarın yaradıcısı olmuşdur. Əlbəttə, bu vəziyyət birdən-birə yaranmayıb. Azərbaycanda sərgi fəaliyyəti artan xətt üzrə inkişaf edirdi: biz öz tərəfdaşımız - aparıcı sərgi və konfrans təşkilatçısı "ITE Group Plc" şirkəti ilə birlikdə çoxsənayeli sərginin təşkili ilə fəaliyyətə başladıq. İndi isə biz hər il 20 ixtisaslaşmış sərgi keçiririk. Ənənəyə uyğun olaraq, bu ilin 2-4 aprel ayında 14-cü Azərbaycan Beynəlxalq "Turizm və Səyahətlər" sərgisi öz işinə başlayacaq və bu sərgi çərçivəsində dünya üzrə 60-dan çox turizm istiqaməti, habelə Azərbaycanın bütün kurort zonaları təqdim olunacaqdır. Fəaliyyət göstərdiyi illər ərzində "AITF" sərgisi regionun müasir turizm bazarının ümumi mənzərəsini əks etdirən və yer kürəsinin müxtəlif guşələrinin koloritini nümayiş etdirən aparıcı beynəlxalq sərgi statusunu qoruyub saxlamışdır. Son vaxtlar tərəfdaşımız sərgi və konqresslərin peşəkar operatoru olan "Caspian Event Organisers" şirkəti ilə birlikdə keçirdiyimiz "WorldFood Azerbaijan" və "Caspian Agro" Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgilərinə maraq xeyli artmışdır. Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevin təşəbbüsü ilə 2015-ci il Azərbaycanda "Kənd təsərrüfatı ili" elan edilmişdir və şübhəsiz ki, bu, may ayında keçiriləcək "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgilərdə öz əksini tapacaq. Həmin tarixlərində keçirilməsi planlaşdırılan "Ipack Caspian 2015" Xəzər Beynəlxalq "Qablaşdırma, tara, etiket və poliqrafiya" sərgisində müxtəlif sənaye sahələri üçün qablaşdırmanın istehsalı və tərtibatı üçün avadanlıqlar, qablaşdırma materialları, tara və hazır qablaşdırmalar təqdim olunacaq. Həmçinin, cari ilin may ayında "Trans-Caspian" 14-cü Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika və 5-ci Yubiley Xəzər Beynəlxalq "Yol İnfrastrukturu və İctimai Nəqliyyat" ("Road & Traffic") sərgiləri, iyun ayında isə Xəzər regionunda enerji sənayesi nailiyyətlərinin nümayişi üzrə yeganə ixtisaslaşdırılmış tədbir - 5-ci Xəzər Beynəlxalq "Energetika və Alternativ Enerji" ("Caspian Power 2015") sərgisi keçiriləcəkdir. Azərbaycanın ilk ixtisaslaşmış tədbiri - 22-ci Beynəlxalq "Caspian Oil and Gas" sərgi və konfransı isə iyun ayında neft-qaz sənayesinin 300-dən çox liderini bir araya gətirəcək. Mən hər zaman qeyd etmişəm ki, Azərbaycanda keçirilən beynəlxalq sərgilər adi sərgi məfhumundan daha geniş məna kəsb edir, belə ki, bu sərgilərdə bizim tariximiz də əks olunur. Bu baxımdan, "Caspian Oil and Gas" sərgisini xüsusilə qeyd etmək lazımdır. Hələ 1994-cü ildə sözügedən sərginin keçirilməsi təşəbbüsünü Azərbaycanın Ümummilli lideri Heydər Əliyev dəstəkləmişdi. Bu il də 2-5 iyun tarixində Bakıda neft sənayesinin inkişafının banilərindən olan Nobel qardaşlarına məxsus neft şirkətinin Azərbaycandakı fəaliyyətinin 135 illiyi ilə əlaqədar olaraq, 22-ci "Caspian Oil and Gas" sərgisi çərçivəsində "Nobel qardaşları və Bakı nefti. Mükafat" adlı rəsm sərgisi keçiriləcək. Bütün rəsmlərin müəllifi həm Azərbaycan, həm də Rusiyada yaxşı tanınan rəssam İrina Eldarovadır. Sərginin fəxri qonaqları qismində Nobel ailəsi üzvlərinin iştirakı nəzərdə tutulmuşdur. Bu rəsmlər həm regionun, həm də bütün dünyada neft hasilatının inkişafı baxımından Azərbaycanın tarixi rol və əhəmiyyətini bir daha xatırladacaq.

**Azərbaycanda keçirilən sərgiləri, haqlı olaraq, ölkənin inkişaf təmayüllərini əks etdirən güzgü adlandırmaq olar."**







2015-ci ilin ikinci yarısında ənənəvi 9-cu Azərbaycan Beynəlxalq Təhsil "Education", 9-cu Azərbaycan Beynəlxalq Karyera "Career", 21-ci Azərbaycan Beynəlxalq Səhiyyə "BIHE", 9-cu Azərbaycan Beynəlxalq Gözəllik və Estetik Tibb "Beauty Azerbaijan", 21-ci Azərbaycan Beynəlxalq İnşaat "BakuBuild", 8-ci Beynəlxalq İstilİk, Havalandırma və Kondisiyalaşdırma sistemləri, Su təchizatı, Sanitariya, Ətraf Mühitin Mühafizəsi Texnologiyaları, Üzgüçülük Hovuzu və Bərpa Olunan Enerji "AquaTherm Baku", 8-ci Xəzər Beynəlxalq Mühafizə, Təhlükəsizlik və Xilasetmə Vasitələri "CIPS Caspian" və "Xəzər: Ətraf Mühit üçün Texnologiyalar" 6-cı Beynəlxalq Ətraf Mühit "CTE" sərgiləri keçiriləcək. Paytaxt sakinlərinin sevdikləri "Bakutel 2015", 21-ci Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgi və Konfransı isə cari ilin payız sərgi mövsümünə yekun vuracaqdır.

Beləliklə, 2015-ci ildə bizi maraqlı sərgi mövsümü gözləyir. Bu müddət ərzində keçiriləcək sərgi və konfranslar yeni texnologiya, əlaqə və tərəfdaşlar, nəhayət, yeni sərmayə axınını vəd edir. Ən əsası isə sərgilərdə bizi istehlakçılar və ya potensial sifarişçilərlə canlı ünsiyyət kimi ən dəyərli hadisə gözləyir. Belə ki, yalnız sərgilərdə şəxsi əlaqələr qurmaq, eləcə də şirkət, məhsul, avadanlıq və xidmətlərə şəxsi münasibət formalaşdırmaq mümkündür ki, bu da müasir dünyada qızıldan qiymətlidir. Dünya statistikasına əsasən, şirkətlərin əksəriyyətində satış əməliyyatlarının 40%-i məhz sərgilər hesabına baş tutur və sərgilər bir şirkətin özünü ciddi işgüzar tərəfdaş kimi təqdim etməsi, öz məhsullarının rəqabətədavamlılığını qiymətləndirməsi və onu maraqlandıran sahədə perspektivli layihələrlə tanış olması üçün əla imkan yaradır. Çağdaş dövrümüzdə sərgilər məhsul və yeni texnologiyaları təşviq etmək, o cümlədən müxtəlif səviyyəli əlaqələr qurmaq üçün ən sivil və perspektivli üsullardan biridir.

2015-ci ildə keçiriləcək sərgilərdə hamıya müvəffəqiyyətlər arzu edirik! ■

**Fərid Məmmədov:** "Iteca Caspian" şirkətinin direktoru